# Seçkilərdə medianın sərbəst fəaliyyəti təmin olunub

Seçkilərin işıqlandırılması və medianın bu prosesdə rolu demokratiklik baxımından mühüm əhəmiyyət kəsb edir. Media azadlığı və fikir plüralizmi təmin olunan Azərbaycanda kütləvi informasiya vasitələri seçkiləri maneəsiz işıqlandırmaq hüququna malikdirlər və bundan dünən istifadə edildi. Eyni zamanda, xarici media vasitələri də bu prosesdə yaxından iştirak etdilər, seçkilər barədə informasiyalar verdilər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin məlumatında qeyd edilib ki, prezident seçkisində jurnalistlərin sərbəst fəaliyyətinin təmin olunması ilə bağlı agentlik tərəfindən dəfələrlə açıqlamalar verilməsinə baxmayaraq, bəzi ekspertlər səviyyəsində ictimai rəyi yanlış istiqamətə yönləndirmək cəhdləri müşahidə olunub. Vurğulanıb ki, səsvermə günü istənilən jurnalist yalnız çalışdığı media subyektinin vəsiqəsini təqdim etməklə seçki məntəqələrində peşəkar fəaliyyətini yerinə yetirə bilər, jurnalistin informasiya əldə etmək hüququ heç bir halda məhdudlaşdırılmır.

Xatırlatmaq istərdik ki, Mərkəzi Seçki Komissiyası, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilən silsilə tədbirlərdə media subyektlərinin istər seçki prosesində şəffaflığın təmin edilməsində, istərsə də seçkiqabağı təşviqat mərhələsində və səsvermə günü öz peşə fəaliyyətlərini yerinə yetirərkən seçki qanunvericiliyinin tələblərinə dəqiqliklə riayət etməli olduqları bildirilib.

Mətbuat Şurasının yaydığı məlumatda isə bildirilib ki, gün ərzində səsvermə prosesini işıqlandıran media vasitələrinin təmsilçilərindən MŞ-nin qaynar xəttinə  cəmi bir müraciət daxil olub. Həmin müraciət üzrə müəyyənləşdirilib ki, xarici media vasitəsi ölkəmizdə akkreditasiyadan keçmədiyindən, onun seçkini işıqlandırması qeyri-mümkündür. Bununla əlaqədar müraciət müəllifi məlumatlandırılıb, ona qanunvericiliyin tələbləri izah edilib.

Bildirilib ki, Mətbuat Şurasının İdarə Heyətinin jurnalist və müşahidəçi kimi qeydiyyatdan keçmiş üzvləri də paytaxtdakı və bölgələrdəki seçki məntəqələrində jurnalistlərə prosesi işıqlandırmaları üçün yaradılmış şəraiti müşahidə ediblər. Onlar jurnalistlərin sərbəst şəkildə peşə fəaliyyətlərini yerinə yetirdiklərini qeydə alıb, mövcud istiqamətdə heç bir problem aşkarlamayıblar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 8 fevral, № 27.- S.15.